# ESTAFET ETİBARLI ƏLLƏRDƏDİR


Musiqi məktəbinin direktoru Yusif Vəliyevlə birgə

## *Hörmətli "Mədəniyyət/ Culture" jurnalının redaksiyası!*

Azərbaycanımızın milli-mənəvi dəyərləri sırasında muğamın xüsusi yeri var. Əsrlərin dərin qatlarından süzülüb gələn bu musiqi janrının spesifik rəngarəng çalarlarla zənginləşməsində, yaşadılmasında, sevilməsində korifey sənətkarlarımızın mühüm rolu danılmazdır. Xan əmi, Seyid Şuşinski, Cabbar Qaryağdı oğlu, Rübabə Muradova, Əlibaba Məmmədov və digər ustadların daha önəmli xidmətləri isə böyük mənada məktəb yaratmalarıdır, öz tələbələrini, davamçılarını yetişdirməklə klassik ənənələrin qırılmasına imkan verməmələridir. Məhz ümummilli təəssübkeşliyimiz, eyni zamanda Heydər Əliyev Fondu və I vitse-prezident Mehriban xanım Əliyevanın fədakar qayğısı sayəsində Azərbaycan muğamı 2008-ci ildə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir.

Muğamı böyük istedad, məsuliyyət və ləyaqətlə gələcək nəsillərə çatdırmağa çalışanların əsas kontingenti musiqi məktəblərinin bugünkü şagirdləri – sənətə həm də xalqın özünütəsdiqi kimi baxan gənclərdir.

Belə müqəddəs missiya daşıyıcılığına haqiqi mənəvi haqqı çatanlardan biri - Bayramov Hüseyn Habil oğlu 2007-ci il oktyabrın 15-də Bakı şəhərində doğulub. Səbail rayonu Məmməd Rahim adına 7 saylı tam orta məktəbin VIII sinif şagirdidir, dərslərini əla oxuyur. Hələ kiçik yaşlarından çalışqanlığı, idmana həvəsi, hərtərəfli bilikləri ilə yanaşı, fitri musiqi istedadına malik olması, yaxşı səsi valideynlərinin diqqətindən yayınmayıb. Atası onu Q. Şaroyev adına 35 saylı 11illik Musiqi Məktəbinə aparıb. Bəyənib qəbul ediblər. Yorulmaq bilmədən ucsuz-bucaqsız musiqi dəryasına baş vuran, sənətin incəliklərini öyrənən balaca Hüseyn hazırda xanəndəlik ixtisası üzrə IX sinifdə təhsil alır, ustad dərslərinə qatılır. Yaşının az olmasına baxmayaraq, bütün zərb muğamları, 9 dəstgah muğamı, çoxlu sayda xalq mahnılarını mükəmməl şəkildə öyrənib. Dəfələrlə müxtəlif muğam müsabiqələrində, musiqi yarışmalarında uğurlar qazanıb, üstün yerlər tutub. Elə bir müddət öncə keçirilən Beynəlxalq Olimpiya Gənclər Festivalında "Mani" muğamını ifa edərək II yerə sahiblənib.

Valideynləri Habil və Elnarə Bayramovlar övladlarının təhsilində rolu olan musiqi məktəbinin direktoru Yusif Vəliyevə, 7saylı orta məktəbin direktoru Könül Təhməzovaya və sinif rəhbəri Afət Əsgərovaya dərin minnətdarlıqlarını bildirirlər.

Hüseyn Bayramovun zəhmətkeşliyi, öz üzərində ciddi işləməsindən əlavə, fitrətən, gendəngəlmə bir istedadının, səsinin varlığı da təsadüfi deyil. Onun babası mərhum Vəli kişi doğma Qarabağımızdan, Laçın rayonundandır. Hüseynin ən böyük arzusu da düşmən tapdağından azad olunan ata-baba torpaqlarında – Laçında, Şuşada "Qarabağ şikəstəsi" oxumaqdır.

***Uğurlar olsun!***

**Nilufər Cəbrayılzadə**